AZAD ŞƏRİF

# XX ƏSR AZƏRBAYCANININ YARADICI NƏSİLLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI - 2007

# ƏBƏDİ BƏRQ VURAN ULDUZ



Azərbaycanda, SSRİ-də, ümumiyyətlə dünyanın bir çox ölkələrində **Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı Rəşid Behbudovun** fitri istedadının təkrarolunmaz sənətinin ovsununa düşməyən insan tapmaq çox çətin olar. Rəşid Məcid oğlu bir dəfə demişdi ki, dağlarda boya-başa çatan uşaq üçün vətən mahnıdan başlayır: «Əvvəlcə ananın laylası, sonradan isə atanın muğamları gəlir. Əzəmətli dağların, hər bulağın da öz səsi var».

1945-ci ildə Rəşid Behbudov Üzeyir Hacıbəyovun «Arşın mal alan» filmində iştirak etmək üçün Tiflisdən Bakıya gəlir. Dünyanın az qala yarısında nümayiş olunmuş bu film özünəməxsus rekord vurdu. 50-dən artıq ölkənin tamaşaçıları R.Behbudovun öz gözəlliyinə və tembrinə görə təkrarsız səsi ilə, yüksək musiqi duyumu və zərif artistlik qabiliyyəti ilə tanış olmaq imkanı əldə etdi. Rəşid onu əhatə edən insanlarla ünsiyyət mədəniyyətinə, məişətdə və səhnədə davranışına görə kübarlıq etalonu idi. Adlı-sanlı konferansye Boris Brunov əbəs yerə demirdi ki, «sovet estradasına yalnız iki nəfər diqtə edir - Arkadi Raykin və Rəşid Behbudov».

Rəşid Behbudovun sənəti qonşu ölkələrdə böyük populyarlıq və uğur qazanmışdı. O, İran və Türkiyədə böyük müvəffəqiyyətlə çıxış etmişdi. Tehranda o, gözəl pianoçu Çingiz Sadıxovla, virtuoz tarzən Əhsən Dadaşovla bərabər planlaşdırılmış iki həftə əvəzinə iki ay yarım qastrolda olmuşdu. O, bu konsertləri sonradan Azərbaycan mahnı və musiqisinin triumfu adlandırırdı.

«İzvestiya» qəzetinin xüsusi müxbiri işləyərkən mən 1966-cı ildə Ankarada onun bir konsertinin şahidi oldum. Zala toplaşan tamaşaçılar Rəşidin zəngin repertuarını əzbərdən bilirdi və məmnuniyyətlə onun oxuduqlarını dodaqlarında zümzümə edirdilər. Rəşid Behbudov Hindistana 6 də-



fə qastrol səfərinə gedib. İki səfər 1952-ci ildə olub. Tanınmış rus şairi Nikolay Tixonovun dediyinə görə, Rəşid konsert zamanı hind, urdu və benqal dilində bir neçə mahnı ifa etmişdi: «Bu, əsl sensasiyaya səbəb oldu və alqışlarla qarşılandı. Hindlilər istedadlı müğənnimizdən belə bir hədiyyəni əsla gözləmirdilər».

Ona həmişə deyərdilər ki, o əsl hindli kimi oxuyur. Rəşid Bombeydə məşhur hind artistləri Rac Kapur və Nərgiz Xumarla tanış olmuşdu. Bu tanışlıq sonradan dostluğa çevrildi. Onlar Sovet İttifaqına gələrək, burada da R.Behbudovla görüşdülər. R.Behbudov Hindistana ilk səfəri haqqında «Uzaq Hindistanda» adlı kitabını qələmə almışdı.

İlk səfərdən iki il ötdükdən sonra sovet artistlərindən ibarət heyətin tərkibində Rəşid ikinci dəfə Hindistana getmişdi. Və bu ölkədə R.Behbudovu artıq köhnə bir dost kimi qarşılamışdılar. Tanınmış hind bəstəkarının yazdığı «Bütün ölkələr içərisində ən yaxşısı mənim Hindistanımdır» mahnısının R.Behbudovun ifasında səslənməsi hindliləri xüsusi riqqətə gətirərdi. O zaman Hindistanda beynəlxalq kinofestival keçirilən günlərdə Rac Kapurun qonağı olarkən o, mənə maraqlı bir əhvalat danışmışdı. Rac Kapurun dediyinə görə, gecə yarısı sovet artistlərini aparan qatarın qarşısı kütlə tərəfindən kəsilmiş və onlar əllərində fənərlə işıq sala-sala bir ağızdan «Rə-şid Beh-bu-dov» deyərək ətrafı lərzəyə salmışdılar. Və Rəşid məcbur olub, qatarın pilləkənində duraraq, onlar üçün hind mahnıları ifa etmişdi.

50-ci illərin əvvəllərində R.Behbudov Fikrət Əmirovun yaradıcılığına aludə olur. O zaman bəstəkar «Sevil» operası üzərində işləyirdi və 1954-cü ildə opera teatrında əsərin premyerası olur. Tamaşadakı Balaş rolunu Rəşid Behbudov məharətlə ifa edir. Bu tamaşa 1959-cu ilin mayında «Bolşoy teatr»da da nümayiş olunur. Və məhz bu tamaşadan sonra R.Behbudova, xeyli yubatsalar da, nəhayət, SSRİ xalq artisti adı verilir.

İstedadlı bəstəkar Tofiq Quliyevin lirik mahnıları da Rəşid Behbudovun ifasında gözəl səslənirdi. Mahnı Teatrını yaradarkən Rəşid Behbudov artıq dünya şöhrətli bir sənətkar idi. Teatrın ilk proqramı «Arşın malçını görməmisiniz ki?» adlanırdı.